## Görkəmli adamların Polad Bülbüloğlu haqqında söylədikləri

Siz böyük sənətkar, böyük bəstəkar, böyük ifaçısınız. Siz Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə vermisiniz. Deyə bilərəm ki, Azərbaycan musiqi mədəniyyətində özünəməxsus və təkrarolunmaz iz buraxmısınız. Nəinki Azərbaycan miqyasında, hesab edirəm ki, dünya miqyasında siz ən görkəmli bəstəkarlardan birisiniz. Bunun əyani sübutu odur ki, sizin mahnılarınız yaşayır. Baxmayaraq ki, mahnıların bəziləri 40 il, 50 il bundan əvvəl yazılıb, amma bu mahnılar bu gün də sevilir. Yəni, onlar ölməz mahnılardır, Azərbaycan musiqi fondunun dəyərli nümunələridir. Bildiyiniz kimi, mən də həmişə sizin istedadınızın pərəstişkarı olmuşam və bu gün də böyük məmnuniyyətlə sizin ifanızda o ölməz mahnıları dinləyirəm. Siz nadir musiqiçilərdənsiniz ki, ancaq özünüz bəstələdiyiniz mahnıları ifa edirsiniz. Bu mahnıları heç kim sizin kimi belə ürəklə, məharətlə ifa edə bilməz.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Polad Bülbüloğlu yaradıcılığı insanların qəlbini mehribanlıq, nəciblik, yenilməz ruh yüksəkliyi kimi hisslərlə əhatə edir. Qeyri-adi istedadı və tükənməz enerjisi ona zaman çərçivəsi ilə məhdudlaşmayan gözəl əsərlər yaratmağa imkan vermişdir. Onun mahnıları müxtəlif nəslin nümayəndələri tərəfindən çox sevilir.

***Mehriban Əliyeva,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

Polad xalq mahnılarının estetik koloritini, bədii məna dərinliyini hiss edir və bu hissiyyat həmin mahnıların məğzini ifadə etmək üçün münbit zəmin yaradır. Hər bir not səsləndikcə, elə bil, Poladın damarlarındakı Qarabağ genlərinin kodu açılır və Azərbaycan xalq mahnılarının ab-havası, ətri bu dəfə, dinləyicinin içinə dolur.

***Elçin Əfəndiyev,***
***Xalq yazıçısı***

Qarabağdı dilində,
Bir gün doğma elində,
Şuşada, mənzilində
Nəğmə qoşaq, ay Polad!

***Fikrət Qoca,***
***Xalq şairi***

Dünyanın müxtəlif guşələrində yaşayan on minlərlə insan Sizi ilk öncə nadir istedada malik özünəməxsus musiqiçi – bəstəkar və müğənni kimi tanıyır. İllər ərzində ölkə -ölkə gəzərək Siz öz təkrarsız sənətinizlə Azərbaycanı millətindən, dili və dinindən asılı olmayaraq geniş auditoriyaya tanıtdırmısınız. Bu gün də Sizin şaqraq səsiniz, bənzərsiz ifa ədanız, bir-birindən gözəl mahnılarınız sevə-sevə dinlənilir: Siz ən gözəl tədbirlərin istəkli, səbirsizliklə gözlənilən qonağısınız.

***

Müxtəliflik, zənginlik Sizin bəstəkartək yaradıcılığınızı da səciyyələndirir. Burada instrumental musiqinin ali janrı - simfoniya, kamera-instrumental və vokal əsərlər də təmsil olunub. Bəstəkar kimi sənətinizin tacı - əbədi dəyərləri vəsf edən “Məhəbbət və ölüm” baletiniz müxtəlif məşhur teatr səhnələrində tamaşaya qoyularaq Azərbaycan sənətinə şöhrət gətirmişdir.

***Cavanşir Axundov,***
***diplomat***

Milli mədəniyyətimizin parlaq bir dövrü bu yaradıcı insanın adı ilə bağlıdır. Xalqımızın ruhunu oxşayan gözəl mahnıları ilə və bəstələdiyi gözəl musiqi əsərləri ilə o pərəstişkarlarının qəlbində özünə işıqlı və fərəhli xatirələr oyadan möhtəşəm abidə ucaltmışdır.

***Vaqif Əsədov,***
***Xalq artisti, rejissor***

Polad Bülbüloğlunun ifaları - oxuduğu bəstəkar və xalq mahnıları, bəstəsi özünə aid nəğmələr olduqca doğma və əzizdir. Bu mahnılarda xalqımızın xeyirxahlığı, nikbinliyi, əyilməzliyi, təmənnasızlığı, bəxtiyarlığı var!

Polad Bülbüloğlu oxuyanda ən kədərli insanın belə içində qeyri-adi bir hadisə baş verir; ürək gülür, ürək sevinir, damardakı qan durulur... Estetik təsir vasitəsi - konkret halda, musiqi sanki fiziki bir təsir imkanı qazanır. Bax bu, sənət möcüzəsidir. Bax bu möcüzənin müəllifi Polad Bülbüloğludur.

***Vaqif Bəhmənli,***
***Əməkdar mədəniyyət işçisi, şair***

Deyirlər ki, insanın ömrünü mənalandıran, onun yaradıcılığını rövnəqləndirən əsas məziyyət ananın, vətənin, təbiətin - bu kimi müqəddəs anlayışların varlığına tapınmaqdır. Polad Bülbüloğlu yaradıcılığında bu müqəddəs incilərin yeri çox böyükdür. Təkcə nəğmələrində, musiqi əsərlərində deyil, bir vətəndaş olaraq fəaliyyətində də vətən ünvanı Polad Bülbüloğlu üçün bütün varidatlardan yuxarıda dayanır.

***

Biz nəslin musiqi zövqünün formalaşmasında, sənətə marağımızın artmasında müxtəlif mədəniyyət xadimlərinin, ifaçıların, bəstəkarların böyük təsiri var. Şübhəsiz ki, onlardan biri də Polad Bülbüloğludur!

***Flora Xəlilzadə,***
***Əməkdar jurnalist***